**Binəqədi Rayon İcra Hakimiyyəti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın 2018-ci ilin birinci rübü ərzində apardığı işlərin**

**HESABATI**

**Hesabat dövründə Binəqədi RİH yanında YYÇİ və HM üzrə komissiyanın 6 iclası keçirilmiş, həmin iclaslarda 10 məsələ müzakirə edilmiş və müvafiq qərarlar qəbul edilmişdir. Belə ki,**

Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın icraatına **34 nəfər** yetkinlik yaşına çatmayanın müxtəlif hüquq pozuntuları törətmələri barədə cəmi **15** material daxil olmuşdur ki, həmin məsələlər komissiya iclasına çıxarılaraq baxılmışdır. Bunlardan **7-i** (26 uşaq) yetkinlik yaşına çatmayanın təhsildən yayınması, **2-i** (2 uşaq) məktəbdə nizam-intizam qaydalarının pozulması, **1-i** uşaq əməyinin istismarı, **5-i (**5 uşaq**)** fərdi profilaktik işlərin açılması barədə məlumatlarla bağlı olmuşdur. Həmin məsələlərə komissiya iclasında baxılaraq yetkinlik yaşına çatmayanlar, habelə onların valideynləri ilə "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında Azərbaycan Respublikası Qanununa əsasən profilaktik söhbətlər aparılmış, **1** uşaq fərdi profilaktik işlərin aparılması üçün uçota götürülmüş, **1** uşaq və onun valideyni barəsində "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə" nin 9-cu və 10-cu maddələrinə əsasən intizam təsiri tədbiri qismində xəbərdarlıq edilməsi barədə, habelə 2 nəfər valideynin üzürlü səbəblər olmadan valideynlik vəzifələrini lazımınca yerinə yetirmədiklərinə görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 189.1-ci maddəsi ilə cərimə edilmələri barədə qərarlar qəbul edilmişdir.

**YYÇİ və HM üzrə komissiya tərəfindən YYÇ-ların hüquqlarının qorunması ilə bağlı aşağıdakı işlər aparılmışdır.**

Hesabat dövründə komissiya üzvləri rayon ərazisində fəaliyyət göstərən tam orta təhsil müəssisələri ilə əlaqə qurmuş, yeniyetmələrlə bağlı problemləri daima diqqət mərkəzində saxlamış, mütəmadi olaraq Rayon Polis İdarəsinin YYÇ-la profilaktiki işin TB-nin inspektorları ilə planlaşdırılmış qaydada tədbirlər həyata keçirmişdir. Məktəblərdə tam orta təhsil almaq istəməyən uşaqların peşə təhsilinə cəlb olunmaları da komissiyanın nəzarətində olmuşdur. Məktəb rəhbərləri ilə şagirdlərin təhsili başa vurmadan oxuduqları məktəblərdən kənarlaşdırılmalarının yolverilməzliyi barədə söhbət aparılmışdır. Qanunla ziddiyətdə olan yetkinlik yaşına çatmayanların komissiyada işlərinə baxılarkən "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında Azərbaycan Respublikası Qanununun" 6-cı və 17.2.1-ci maddələrinə əsasən fərdi profilaktik işin aparılaraq uçota götürülmələri üçün daxili işlər orqanlarına göndərilmişlər. Binəqədi rayon

ümumtəhsil məktəbləri rəhbərlərinin müraciətləri və ya polis orqanından daxil olan materiallar əsasında komissiya üzvləri tərəfindən təhsildən yayınan, məktəbin nizam-intizam qaydalarını pozan şagirdlərlə profilaktik söhbət aparılmış, zərərli vərdişlərdən uzaq olmaları, təhsildən yayınmanın yolverilməzliyi, təhsilin önəmi və cəmiyyətdə davranış qaydalarına riayət edilməsi barədə maarifləndirici söhbət aparılmışdır.

**1. Daxili işlər orqanları xətti ilə aparılan işlər:**

- Hesabat dövründə RPİ-dən alınmış hesabata əsasən yetkinlik yaşına çatmayanlarla Profilaktiki işin təşkili bölməsinin inspektorları tərəfindən reydlər keçirilmişdir. Müxtəlif qanun pozuntularına görə 30 nəfər yeniyetmə və azyaşlı bölmələrə gətirilmiş, onlarla profilaktik söhbətlər aparılmış, valideynlərə təhvil verilmişdir. Azyaşlı və yeniyetmələr arasında hesabat dövrü ərzində 9 cinayət hadisəsinin törədilməsi faktı qeydə alınmışdır. Rayon Polis İdarəsinin müvafiq bölmələri tərəfindən həmin bölmələrin ərazisində olan məktəblərdə pozğun həyat tərzi keçirmə, narkomaniyaya meyillik və dərsdən yayınma halları ilə əlaqədar şagirdlərlə profilaktik söhbətlər aparılmış və mühazirələr oxunmuşdur.

Yetkinlik Yaşına Çatmayanlarla Profilatktik İşin Təşkili Bölməsində (2018-ci ilin I rübü):

- Keçirilən reydin sayı – **18;**
- Bölmələrə gətirilən azyaşlıların sayı – **30 nəfər;**
- Qeydiyyatda olan yetkinlik yaşına çatmayanların ümumi sayı –**15 nəfər;**
- qeydiyyata götürülənlərin sayı – 6 **nəfər;**
- qeydiyyatdan çıxarılan –**0**;
- cinayət hadisəsi törədilmiş – **9 cinayət hadisəsi**
- YYÇ-nin əməyinin istismarı – **0;**
- YYÇ-yə qarşı törədilən cinayətlər - **4**

Yetkinlik Yaşına Çatmayanlarla Profilatktik İşin Təşkili Bölməsində (2017-ci ilin I rübü):

- Keçirilən reydin sayı – **15;**
- Bölmələrə gətirilən azyaşlıların sayı – **30 nəfər;**
- Qeydiyyatda olan yetkinlik yaşına catmayanların ümumi sayı –7 **nəfər;**
- qeydiyyata götürülənlərin sayı – **0;**
- qeydiyyatdan çıxarılan –**1**;
- cinayət hadisəsi törədilmiş – **4 cinayət hadisəsi**
- YYÇ-nin əməyinin istismarı – **0;**
- YYÇ-yə qarşı törədilən cinayətlər - **1**

| Binəqədi RİH yanında YYÇ-lərin işləri və HMK-ya d/o YYÇ işləri | 2017-ci ilin I RÜBÜ | 2018-ci ilin I RÜBÜ |
|---|---|---|
| **Əməyin istismarı** | 2 | 1 |
| **Təhsildən yayınma** | 1 | 7 |
| **Avaralıq və dilənçilik** | 1 | |
| **Özbaşına evi tərk etmə** | | |
| **Nizam-intizam qaydalarını pozma** | 1 | |
| **Digər hüquq pozuntuları** | 2 | 2 |
| **FPİ məlumat** | | 5 |
| **CƏMİ** | **7** | **15** |






| Binəqədi RPİ-nin YYÇ-lərlə Profilaktiki İşin Təşkil Bölməsi | 2017-ci ilin I RÜBÜ | 2018-ci ilin I RÜBÜ |
|---|---|---|
| Keçirilən reydlərin sayı | 15 | 18 |
| Bölmələrə gətirilən azyaşlıların sayı | 30 | 30 |
| Qeydiyyatda olan yetkinlik yaşına çatmayanların ümumi sayı | 7 | 15 |
| Qeydiyyata götürülənlərin sayı | | 6 |
| Qeydiyyatdan çıxarılanların sayı | 1 | |
| Cinayət hadisəsi törətmişlərin sayı | 4 | 9 |
| YYÇ-nin əməyinin istismarı | | |
| YYÇ-yə qarşı törədilən cinayətlər | 1 | 4 |
| **CƏMİ** | **58** | **82** |




